AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN QƏRARI* |
| Qəbul edildiyi tarix | *29.10.2013* |
| Qeydiyyat nömrəsi | *Q-25* |
| Adı | *“Hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat forması və onun təqdim olunması Qaydaları”nın təsdiq edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *08.11.2013* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.160.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201310290025* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *07.11.2013* |

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli Fərmanının 2.1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 16 oktyabr 2006-cı il tarixli, 469 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları”nın 4.4-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

QƏRARA ALIR:

1. “Hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat forması və onun təqdim olunması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 14 noyabr 2007-ci il tarixli İ-101 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 30 noyabr 2007-ci il tarixdə (şəhadətnamə № 3373) dövlət qeydiyyatına alınmış “Hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat forması və onun təqdim olunması Qaydaları”, habelə

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 16 iyun 2009-cu il tarixli İ-72 nömrəli (23 iyun 2009-cu il tarixdə dövlət qeydiyyatına alınmış) əmrinin 4-cü hissəsi və 21 aprel 2010-cu il tarixli İ-64 nömrəli (30 aprel 2010-cu il il tarixdə dövlət qeydiyyatına alınmış) əmrinin 3-cü hissəsi ləğv edilsin.

3. Nazirliyin aparatının Uçot siyasəti şöbəsinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

4. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
maliyyə naziri

Samir Şərifov

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin
Kollegiyasının
Q-25 nömrəli
"29" oktyabr 2013-cü il tarixli
Qərarı ilə təsdiq edilmişdir.

## Hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat forması və onun təqdim olunması

## QAYDALARI

### 1. Ümumi müddəalar

Bu Qaydalar "Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli, 469 nömrəli Fərmanına, «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat forması və onun təqdim olunması qaydalarını müəyyən edir.

### 2. "Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat" formasının doldurulması

2.1. "Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat" forması məhkəmənin hökmü (qərarı) əsasında dövlət nəfinə müsadirə olunmuş əmlakın qanunvericiliklə müəyyən olunmuş qaydada bir hissəsini təhvil alan cinayət işləri üzrə ibtidai istintaq aparmış hüquq-mühafizə orqanları və inzibati xətalar haqqında işlər üzrə icraata başlamış orqanlar tərəfindən tərtib olunur (əlavə olunur).

2.2. Bu hesabat forması aşağıda göstərilən 3 hissədən ibarətdir.

2.2.1. a) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərraclar vasitəsi ilə satışından daxil olan pul vəsaitlərinin hərəkəti;

2.2.2. b) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş milli və xarici valyutadan daxil olan pul vəsaitlərinin hərəkəti;

2.2.3. c) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş natura şəklində verilən əmlakın hərəkəti.

2.3. Məhkəmə hökmü (qərarı) əsasında dövlət nəfinə müsadirə olunmuş əmlakların satışı qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla Hərracların Təşkili üzrə Auksion Mərkəzi, bütün növ qiymətli kağızların satışı isə Fond Birjası vasitəsi ilə həyata keçirilir.

2.4. Məhkəmə hökmü (qərarı) əsasında dövlət nəfinə müsadirə olunmuş əmlakların satışı üzrə hərrac baş tutduğu andan sonra 3 gün ərzində Hərracların Təşkili üzrə Auksion Mərkəzi və ya Fond Birjası tərəfindən əmlakın saxlanılması, daşınması, qiymətləndirilməsi və satışı ilə bağlı, habelə qanunvericiliklə müəyyən olunan digər xərclər, o cümlədən cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi xərcləri çıxılmaqla, qalan məbləğin 30%-i aidiyyəti orqanın hesabına, qalan vəsait isə dövlət büdcəsinə köçürülür.

2.5. Hesabat formasının a) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərraclar vasitəsi ilə satışından daxil olan pul vəsaitlərinin hərəkəti hissəsi aşağıdakı qaydada doldurulur:

2.5.1. 1-ci sütunda sıra nömrəsi;

2.5.2. 2-ci sütunda əmlakın qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət nəfinə müsadirə olunması barədə məhkəmə hökmünü (qərarını) çıxaran məhkəmənin adı;

2.5.3. 3-cü sütunda dövlət nəfinə müsadirə olunmuş əmlak üzrə icra sənədinin tarixi və nömrəsi;

2.5.4. 4-cü sütunda dövlət nəfinə müsadirə olunmuş əmlakın icra sənədinə əsasən adı;

2.5.5. 5-ci sütunda əvvəlki dövrlər üzrə müsadirə edilmiş əmlakın satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ;

2.5.6. 6-cı sütunda hesabat dövrü ərzində müsadirə edilmiş əmlakın satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-i;

2.5.7. 7-ci sütunda hesabat dövrü ərzində müsadirə edilmiş əmlakın hərraclar vasitəsi ilə satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülmüş məbləğ üzrə sənədin adı, tarixi və №si;

2.5.8. 8-ci sütunda hesabat dövrü ərzində müsadirə edilmiş əmlakın hərraclar vasitəsi ilə satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülmüş məbləğ;

2.5.9. 9-cu sütunda hesabat dövrünün sonuna müsadirə edilmiş əmlakın satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ əks etdirilir.

2.6. Hüquq-mühafizə orqanı və digər orqanlar tərəfindən məhkəmə hökmünə (qərarına) əsasən müsadirə edilmiş milli və xarici valyutada müsadirə edilmiş pul vəsaitləri qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla (xarici valyuta konvertasiya edilməklə) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin Azərbaycan Respublikasının Mərkəzi Bankındakı müvafiq hesablarına köçürülür.

2.7. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin Azərbaycan Respublikasının Mərkəzi Bankındakı hesabına daxil olan müsadirə edilmiş milli və ya xarici valyutada olan vəsaitdən məhkəmə hökmü (qərarı) qüvvəyə mindikdən sonra 3 gün ərzində qanunvericiliklə müəyyən edilən xərclər, o cümlədən bank əməliyyatları üzrə xərclər, cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi xərcləri çıxılmaqla, qalan məbləğin 25%-i aidiyyəti orqanın hesabına, qalan vəsait isə dövlət büdcəsinə köçürülür.

2.8. Hesabat formasının b) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş milli və xarici valyutadan daxil olan pul vəsaitlərinin hərəkəti hissəsi aşağıdakı qaydada doldurulur:

2.8.1. 1-ci sütunda sıra nömrəsi;

2.8.2. 2-ci sütunda milli və xarici valyutada olan pul vəsaitlərinin qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət nəfinə müsadirə olunması barədə məhkəmə hökmünü (qərarını) çıxaran məhkəmənin adı;

2.8.3. 3-cü sütunda dövlət nəfinə müsadirə olunmuş milli və xarici valyutada olan pul vəsaitləri üzrə icra sənədinin tarixi və nömrəsi;

2.8.4. 4-cü sütunda dövlət nəfinə müsadirə olunmuş milli və xarici valyutada olan pul vəsaitlərinin icra sənədinə əsasən adı;

2.8.5. 5-ci sütunda əvvəlki dövrlər üzrə müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ;

2.8.6. 6-cı sütunda hesabat dövrü ərzində müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-i;

2.8.7. 7-ci sütunda hesabat dövrü ərzində müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülmüş məbləğ üzrə sənədin adı, tarixi və №si;

2.8.8. 8-ci sütunda hesabat dövrü ərzində müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülmüş məbləğ;

2.8.9. 9-cu sütunda hesabat dövrünün sonuna müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ əks etdirilir.

2.9. Məhkəmə hökmünə (qərarına) əsasən müsadirə edilmiş əmlakdan hüquq-mühafizə orqanı və digər orqanların tələbatlarına cavab verən əmlak tam natura şəklində bu orqanlara verilir.

2.10. Hesabat formasının c) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş natura şəklində verilən əmlakın hərəkəti hissəsi aşağıdakı qaydada doldurulur:

2.10.1. 1-ci sütunda sıra nömrəsi;

2.10.2. 2-ci sütunda əmlakın qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət nəfinə müsadirə olunması barədə məhkəmə hökmünü (qərarını) çıxaran məhkəmənin adı;

2.10.3. 3-cü sütunda dövlət nəfinə müsadirə olunmuş həmin əmlak üzrə icra sənədinin tarixi və nömrəsi;

2.10.4. 4-cü sütunda dövlət nəfinə müsadirə olunmuş əmlakın icra sənədinə əsasən adı;

2.10.5. 5-ci sütunda hesabat dövrünün əvvəlinə hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilməsi müəyyən edilən əmlakın məbləği;

2.10.6. 6-cı sütunda hesabat dövrü ərzində hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilməsi müəyyən edilən əmlakın məbləği;

2.10.7. 7-ci sütunda hesabat dövrü ərzində hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin qəbul-təhvil verilməsi Aktı"na əsasən verilmiş əmlak üzrə həmin aktın tarixi və №si;

2.10.8. 8-ci sütunda hesabat dövrü ərzində hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilmiş əmlakın məbləği;

2.10.9. 9-cu sütunda hesabat dövrünün sonuna hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilməsi müəyyən edilən əmlakın məbləği əks etdirilir.

2.11. Hesabat formasının a), b) və c) hissələrinin sonunda olan "I yarımillik üzrə hesabat dövrünün cəmi", "II yarımillik üzrə hesabat dövrünün cəmi" və "Cari il üzrə yekunu" sətirləri aşağıdakı qaydada doldurulur:

2.11.1. "I yarımillik üzrə hesabat dövrünün cəmi" sətrində təqvim ilinin birinci yarımilliyində 5, 6, 8 və 9-cu sütunlar üzrə cəmi məbləğ göstərilir;

2.11.2. "II yarımillik üzrə hesabat dövrünün cəmi" sətrində təqvim ilinin ikinci yarımilliyində 5, 6, 8 və 9-cu sütunlar üzrə cəmi məbləğ göstərilir;

2.11.3. "Cari il üzrə yekunu" sətrində "I yarımillik üzrə cəmi" və "II yarımillik üzrə cəmi" sətirlərinin göstəricilərinin cəmi əks etdirilir.

## 3. "Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat" formasının aidiyyəti üzrə təqdim edilməsi

3.1. "Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat" məhkəmənin hökmü (qərarı) əsasında dövlət nəfinə müsadirə olunmuş əmlakın qanunvericiliklə müəyyən olunmuş qaydada bir hissəsini təhvil alan cinayət işləri üzrə ibtidai istintaq aparmış hüquq-mühafizə orqanları və inzibati xətalar haqqında işlər üzrə icraata başlamış orqanlar tərəfindən hər yarımillikdə bir dəfə, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə rəhbər və baş mühasib tərəfindən imzalanıb həmin orqanın möhürü ilə təsdiq olunaraq təqdim olunur.

3.2. Müsadirə edilmiş əmlakın hərəkəti olmadığı halda "Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat" bu Qaydaların 3.1-ci bəndinin tələblərinə uyğun təqdim olunur.

Hüquq-mühafizə və digər orqanların maddi-texniki bazasının
yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərəkəti
haqqında hesabat forması və onun təqdim olunması Qaydalarına əlavə

________________________________________________________________

Hesabatı təqdim edən hüquq-mühafizə və ya inzibati xətalar haqqında işlər üzrə icraata başlamış orqanın adı

Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən

müsadirə edilmiş əmlakın hərəkəti haqqında hesabat

"____" __________ il

a) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş əmlakın hərraclar vasitəsi ilə satışından daxil olan pul vəsaitlərinin hərəkəti

(manatla)

| Sıra № | Məhkəmə hökmünü (qərarını) çıxaran məhkəmənin adı | İcra sənədi | | Əvvəlki dövrlər üzrə müsadirə edilmiş əmlakın satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ | Hesabat dövrü ərzində müsadirə edilmiş əmlakın satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-i | Hesabat dövrü ərzində müsadirə edilmiş əmlakın hərraclar vasitəsi ilə satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülmüş məbləğ | | Hesabat dövrünün sonuna müsadirə edilmiş əmlakın satışından dövlət büdcəsinə daxil olan vəsaitin 30%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ |
|---|---|---|---|---|---|---|---|---|
| | | tarixi və №si | Əmlakın adı | | | sənədin adı, tarixi və №si | məbləğ | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | I yarımillik üzrə hesabat dövrünün cəmi | | | | | | | |
| | II yarımillik üzrə hesabat dövrünün cəmi | | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Cari il üzrə yekunu | | | | | |

b) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş milli və xarici valyutadan daxil olan pul vəsaitlərinin hərəkəti

(manatla)

| Sıra № | Məhkəmə hökmünü (qərarını) çıxaran məhkəmənin adı | İcra sənədi | | Əvvəlki dövrlər üzrə müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülməyən məbləğ | Hesabat dövrü ərzində müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-i | Hesabat dövrü ərzində müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürülmüş məbləğ | | Hesabat dövrünün sonuna müsadirə edilmiş milli və xarici valyutadan dövlət büdcəsinə daxil olan vəsaitin 25%-dən hüquq-mühafizə və digər orqanların hesabına köçürül-məyən məbləğ |
|---|---|---|---|---|---|---|---|---|
| | | tarixi və №si | Milli və xarici valyutanın adı | | | sənədin adı, tarixi və №si | məbləğ | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | I yarımillik üzrə hesabat dövrünün cəmi | | | | | | | |
| | II yarımillik üzrə hesabat dövrünün cəmi | | | | | | | |
| | Cari il üzrə yekunu | | | | | | | |

c) Hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən müsadirə edilmiş natura şəklində verilən əmlakın hərəkəti

(manatla)

| Sıra № | Məhkəmə hökmünü (qərarını) çıxaran məhkəmənin adı | İcra sənədi | | Hesabat dövrünün əvvəlinə hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilməsi müəyyən edilən əmlakın məbləği | Hesabat dövrü ərzində hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilməsi müəyyən edilən əmlakın məbləği | Hesabat dövrü ərzində hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilmiş əmlak | | Hesabat dövrünün sonuna hüquq-mühafizə və digər orqanlara müsadirə edilmiş natura şəklində verilməsi müəyyən edilən əmlakın məbləği |
|---|---|---|---|---|---|---|---|---|
| | | tarixi və №si | Əmlakın adı | | | Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin qəbul-təhvil verilməsi aktının tarixi və №si | məbləğ | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| I yarımillik üzrə hesabat dövrünün cəmi | | | | | | | | |
| II yarımillik üzrə hesabat dövrünün cəmi | | | | | | | | |
| Cari il üzrə yekunu | | | | | | | | |

**R**ə**hb**ə**r**:______________________________
(imzası, soyadı, adı, atasının adı, vəzifəsi)

Baş mühasib:________________________
(imzası soyadı, adı, atasınm adı)